

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 23 (21.433)

*5 fevral 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" konfransı işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə konfransda iştirak edib.

Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən konfransda Suriyaya təcili və uzunmüddətli yardımın təmin edilməsi, regionda humanitar və təhsil layihələrinin reallaşdırılması, böhrandan əziyyət çəkən qaçqınların sosial problemlərinin həll olunması, onları qəbul edən ölkələrə dəstək göstərilməsi məsələləri müzakirə edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" konfransı çərçivəsində Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə görüşüb.




## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura iclası keçirilib

*Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı şurasının fevralın 4-də keçirilmiş iclasında təşkilatın 2015-ci ildəki fəaliyyətindən və qarşıda duran vəzifələrdən geniş söhbət açılıb.*

Tədbiri Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli açaraq hesabat məruzəsi ilə çıxış edib.

Qeyd olunub ki, ötən il Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatında 4 şura yığıncağı, İdarə Heyətinin 12 iclası olub. İl ərzində 13 siyasi-ideoloji tədbir keçirilib ki, bunların 10-u elmi-praktik konfranslar olub.

Partiya təşkilatı ötən il noyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilmiş seçkilərdə fəal iştirak edib, üzvlərdən 2-si Milli Məclisə, 21 nəfəri isə Ali Məclisə deputat seçilib.



Bildirilib ki, təşkilatda partiya sıralarının genişləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Bu zaman keyfiyyət prinsipi əsas götürülüb. 2015-ci ildə müxtəlif ilk təşkilatlardan partiyaya qəbul olunmaq üçün müraciət edən 469 nəfərdən 336 nəfər partiyaya üzv qəbul edilib, 133 nəfərin siyasi hazırlıq səviyyəsi qaneedici olmadığından onların partiyaya üzvlüyündən imtina olunub. Yeni qəbul olunan üzvlərin 328 nəfəri gənclər, 196 nəfəri qadınlardır. Ümumiyyətlə, hazırda partiyanın şəhər təşkilatı 187 ərazi ilk təşkilatında öz sıralarında 15 min 767 nəfəri birləşdirir ki, onların da 8 min 790 nəfərini gənclər, 8164 nəfərini qadınlar təşkil edir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Qadınlar Şurası ötən il fəaliyyətlərini uğurla quraraq təşkilatın ümumi işində fəallıq göstəriblər.

"Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı İdarə Heyətinin bu il yanvarın 28-də keçirilən iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbov partiyanın rayon və şəhər təşkilatları qarşısında mühüm vəzifələr qoyub və 2016-cı ili "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan edib", – deyən Elman Cəfərli vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının cari ildəki fəaliyyətində həmin vəzifələrin həyata keçirilməsi prioritet olacaq.

Şura iclasında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva, şura üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev çıxış ediblər.

Sonra təşkilatın 2016-cı il üçün iş planına yenidən baxılması, partiyaya üzvlərin qəbul olunmasında keyfiyyətin artırılması üçün işçi qrupun yaradılması və yeni üzvlərin qəbulu ilə bağlı məsələlərə baxılıb, müvafiq qərarlar qəbul olunub.

**Rauf ƏLİYEV**

## İran gömrük xidməti ilə əməkdaşlıq genişləndirilir

*Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin yüksəkvəzifəli şəxsləri arasında ikitərəfli görüşlər keçirilib.*

Tərəflər İranın Culfa və Azərbaycanın Naxçıvan şəhərində bir araya gəliblər. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Səfər Mehdiyev, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov, İran tərəfdən isə İran İslam Respublikası Gömrük İdarəsinin Beynəlxalq münasibətlər idarəsinin rəisi Əhəd Pərahan və digər rəsmilərin iştirak etdiyi görüşdə əməkdaşlığın genişləndirilməsinin sərhəd-keçid məntəqələrində gömrük xidmətinin keyfiyyətinin artırılması baxımından xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb.

Müzakirələr zamanı Culfa sərhəd-keçid məntəqəsinin yük xəttinin cümə günləri də fəaliyyət göstərməsi ilə hər iki ölkə ərazisindən tranzit daşımaların və yük dövriyyəsinin xeyli artdığı, İran İslam Respublikasının Poldəşt gömrüyündə yeni infrastrukturun istifadəyə verilməsilə isə ticarət əlaqələrinin daha da artacağı önə çəkilib.

Tərəflər gömrük qanunvericiliyinə edilən dəyişikliklər barədə mümkün qədər qısa zamanda məlumat mübadiləsinin həyata keçirilməsi, Biləsuvar və Astara sərhəd-keçid məntəqələrinin 24 saat işləməsi, İran İslam Respublikasının Biləsuvar sərhəd-keçid məntəqəsinin yük xəttinin cümə günləri fəaliyyət göstərməsi, eləcə də hər iki ölkənin ərazisində müvafiq tranzit daşımaları zamanı ortaya çıxan problemlərin aradan qaldırılması istiqamətində işlərin davam etdirilməsinə dair razılığa gəliblər.

Gündəlikdə duran məsələlər üzrə aparılmış müzakirələrin yekunu olaraq gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında hökumətlərarası sazişin layihəsi də razılaşdırılıb. Həmçinin "Məlumat mübadiləsi sistemi" haqqında texniki təminat sənədi paraflandırılaraq pilot layihə kimi istifadəsinə dair razılıq əldə olunub. Bu sənədə əsasən, Azərbaycan Respublikasından İran İslam Respublikası ərazisinə və əks istiqamətdə keçən mallar barədə elektron məlumat mübadiləsi aparılacaq. Bu isə sərhəd-keçid məntəqələrində gömrük rəsmiləşdirilməsi prosesinin və avtomaşınların keçidinin sürətlənməsinə şərait yaradacaq, düzgün bəyan etməmə kimi halların qarşısı alınacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*Muxtar respublikada hava nəqliyyatı ilbəil inkişaf edir, bu sahədə müasir texnologiyalar tətbiq olunur. Ötən il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Aerovağzal kompleksinin "Şərq Terminalı"nın istifadəyə verilməsi sərnişin dövriyyəsinin həcmini və xidmətin səviyyəsini xeyli artırmışdır.*

## Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlərə nümunəvi xidmət göstərilir

Bu ilin yanvar ayı ərzində yerli hava xəttindən 15 min 387 sərnişin istifadə etmiş, 232 min 37 kiloqram baqaj, 41 min 725 kiloqram yük və 2289,27 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti ilə isə Naxçıvan-Moskva reysi üzrə 136 sərnişin, 2 min 373 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi üzrə 364 sərnişin və 5 min kiloqram baqaj daşınmışdır.

Hava limanında daim təhlükəsizlik işlərinin görülməsi və texnikaların işinə nəzarət olunması uçuşların vaxtında və təhlükəsiz təşkilini təmin etmişdir. Ay ərzində hava gəmilərinə uçuşqabağı və sonra texniki baxış keçirilmiş, uçuş-enmə zolağı və dayanacaqlar mütəmadi yoxlanılmış, perronda və dönmə yollarında təmir işləri aparılmış, işıq-siqnal sisteminə və bütün növ xidməti avtomobillərə texniki baxış keçirilmiş, lazımi hissələr dəyişdirilmişdir.

Aerovağzal binasında xidmətin günün tələbləri səviyyəsində təşkili diqqətdə saxlanılmış, "Şərq Terminalı"nda yeni qeydiyyat avadanlıqları quraşdırılmış, hava limanının 8 əməkdaşı Milli Aviasiya Akademiyasında teleskopik trapın idarə olunması üzrə keçirilən nəzəri-praktiki kurslarda iştirak etmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanının bütün ərazisində yanğın əleyhinə mütəmadi tədbirlər görülür, aviasiya təhlükəsizliyi təmin olunur. Bu məqsədlə yanğınsöndürmə avtomobillərinin və nəzarət-müşahidə kameralarının istismara yararlılığı diqqət mərkəzində saxlanılır, taktiki məşğələlər keçirilir. Bu tədbirlərin davamı olaraq yanvarın 29-da növbəti iclas keçirilmiş, işçilərə yanğına qarşı və aviasiya təhlükəsizliyi tədbirləri ilə bağlı müvafiq təlimatlar verilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, hava limanında yanvar ayında aviasiya təhlükəsizliyi işi günün tələblərinə uyğun qurulmuş, sərnişinlər, baqaj və yüklər təlimata uyğun yoxlanılmış, xidmət nümunəvi təşkil olunmuşdur.

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

## Meliorasiya və irriqasiya tədbirləri davam etdirilir

***Muxtar respublikada su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır, ardıcıl meliorasiya və irriqasiya tədbirləri görülür. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları 2016-cı ildə də bu işləri uğurla davam etdirirlər.***

Yanvar ayında suvarmanın səmərəli və mütəşəkkil aparılması məqsədilə 1,75 kilometr təzyiqli boru xətti təmir olunmuş, 14,88 kilometr kanal, 29,6 kilometr ara arxlar və 1,3 kilometr kollektor lildən təmizlənmiş, 1 kilometr məsafədə yeni suvarma xətti çəkilmişdir. Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən 107 hektarlıq qapalı suvarma şəbəkəsində 600 metr məsafədə boru xətti çəkilmişdir. Şərur rayonunun Ələkli kəndinə birbaşa suvarma suyunun verilməsi üçün Arpaçay sol sahil kanalından yeni boru xəttinin tikintisinə başlanılmış və 760 metr boru xəttinin tikintisi başa çatmışdır. Bu dövrdə Araz çayı ətrafındakı torpaqların yuyulmasının qarşısını almaq məqsədilə 300 metr sahilbərkitmə işi görülmüşdür.

Muxtar respublikada subartezian quyularının sayının artırılması yaşayış məntəqələrinin su təminatını, suvarma işlərini xeyli yaxşılaşdırmışdır. Bu sahədə işlər bu ilin ilk ayında da davam etdirilmiş, Kəngərli rayonunun Qabıllı kəndində yeni subartezian quyusu qazılmış, Babək rayonunun Yuxarı Uzunoba kəndində subartezian quyusu bərpa edilmiş, mövcud quyularda təmir-bərpa işləri görülmüşdür. Bəhs olunan dövrdə 46 subartezian quyusu təmir olunmuşdur. Həmçinin suvarma mövsümünü mütəşəkkil şəkildə keçirmək məqsədilə 80 nasos stansiyasında təmir işləri aparılmış, 2 elektrik mühərriki və 1 nasos yenisi ilə əvəz olunmuşdur. Bu dövrdə kəhrizlərin təmir-bərpası da diqqət mərkəzində saxlanılmış, 5 kəhrizdə təmir işləri davam etdirilmişdir.

Muxtar respublikanın bütün yaşayış məntəqələrində dayanıqlı və keyfiyyətli içməli su təminatı yaradılır, yeni kanalizasiya sistemləri qurulur. Yanvar ayında da bu istiqamətdə işlər davam etdirilmiş, 2,43 kilometr su xətti təmir olunmuş, 625 metr yeni su xətti və 100 metr kaptaj tikilmiş, Naxçıvan şəhərinin Tumbul kəndində 2300 metr kanalizasiya xətti çəkilmişdir. Həmçinin "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilmişdir. Ötən aydan başlayaraq Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərində də su və kanalizasiya şəbəkəsinin çəkilişlərinə başlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

Yeni nəşrlər

# “Naxçıvan tarixi” çoxcildliyinin nəşri Azərbaycan elminə və ictimai fikir tarixinə mühüm töhfədir

***Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və elmi-mədəni həyatında ötən il baş verən çox mühüm, əhəmiyyətli və yaddaqalan hadisələrdən biri də “Naxçıvan tarixi” çoxcildliyinin III cildinin işıq üzü görməsi, bununla da, bu möhtəşəm əsərin nəşrinin başa çatdırılmasıdır. Naxçıvanın tarixi haqqında gerçək və ümumiləşdirici əsərin yazılması ideyası ilk dəfə 11-12 iyul 1996-cı ildə Naxçıvan şəhərində keçirilən “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən irəli sürülmüş, Naxçıvanın yeni istiqamətdə, milli ruhda, gerçək mənbələr əsasında, milli mənafe əsas götürülməklə əsl tarixinin yazılması tədqiqatçılar qarşısında bir vəzifə kimi qoyulmuş və vurğulanmışdır ki, “Bizə görə “Uluslararası qaynaqlarda Naxçıvan” simpoziumunun materialları ən yaxın dövrdə yazılacaq Naxçıvan tarixinin proqramı, necə deyərlər, eskizi, layihəsi, ilkin variantı, bəlkə də əsas istiqamətləri olacaqdır”.***



Ancaq qarşıya qoyulan bu vəzifənin uğurlu həllinə nail olmaq üçün həmin vaxt bütün Azərbaycan Respublikasında olduğu kimi, ağır və çətin günlərini yaşayan Naxçıvan Muxtar Respublikasında da lazımi şərait yox idi. Ən başlıcası, əvvəlki dövrlərdə aparılan tədqiqatlar, əldə olunan elmi nəticələr belə bir möhtəşəm nəşrin yazılması üçün kifayət etmirdi. Ona görə də bu çatışmazlıqları və maneələri aradan qaldırmaq üçün Naxçıvan tarixinin ən qədim zamanlardan müasir dövrədək müxtəlif problemlərinin tədqiqi ilə əlaqədar aparılan işlər yüksək dövlət qayğısı sayəsində genişləndirilmiş, aparılan elmi-tədqiqat işlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələri pasportlaşdırılmış, bu abidələr əsasında Azərbaycan və ingilis dillərində “Naxçıvan Abidələri Ensiklopediyası” hazırlanmışdır. Naxçıvan Muxtar Respublikasında aparılan arxeoloji tədqiqatlar genişləndirilmiş, yerli tədqiqatçıların iştirakı ilə 10-a yaxın arxeoloji ekspedisiya, həmçinin ABŞ və Fransa arxeoloqlarının iştirakı ilə iki beynəlxalq ekspedisiya, 2013-cü ildən Ali Məclis Sədrinin dəstəyi ilə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası fəaliyyət göstərməyə başlamışdır. Naxçıvan Muxtar Respublikasının müxtəlif yerlərində, o cümlədən Gəmiqayada, Ovçular təpəsində, Oğlanqalada, Ərəbyengicədə, Duzdağda, I Kültəpədə, Xarabagilanda və başqa yerlərdə aparılan arxeoloji tədqiqatlar sübut etdi ki, Naxçıvan bölgəsi Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur. Aparılan son tədqiqatlar göstərdi ki, Naxçıvanda insanlar ən qədim zamanlardan – Ovçular təpəsində 500-300 min il, Qazma mağarasında 120 min il bundan əvvəl yaşamış, bölgə ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuş, əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan 5000 il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır. Yüksək inkişaf yolu keçən Naxçıvan bölgəsi “Eneolit mədəniyyəti”nin, “Kür-Araz mədəniyyəti”nin və “Boyalı qablar mədəniyyəti”nin yarandığı mərkəzə çevrilmişdir.

Naxçıvanın orta əsrlər, yeni və ən yeni dövr tarixinə aid də geniş tədqiqatlar aparılmışdır. Tədqiqatların nəticələri əsasında çoxlu monoqrafiyalar və məqalələr yazılmışdır. Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası, epiqrafikası, numizmatikası və sair ilə əlaqədar elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaları müdafiə olunmuş, tarix elminin müxtəlif sahələri ilə məşğul olan yüksəkixtisaslı kadrlar hazırlanmışdır.

Tariximizin müxtəlif problemləri ilə əlaqədar Naxçıvan şəhərində keçirilən respublika və beynəlxalq miqyaslı yığıncaqlarda, o cümlədən, “Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan”, “Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi”, “Naxçıvan ilkin şəhər və Duzdağ”, “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzularında keçirilən simpoziumlarda Naxçıvan tarixi ilə əlaqədar çoxlu sayda məruzələr dinlənilərək müzakirə olunmuş, əldə olunan nəticələr təhlil edilmiş, bundan sonra qarşıda duran vəzifələr müəyyənləşdirilmiş, həmin elmi məclislərin materialları ayrıca kitab şəklində nəşr olunmuşdur.

Keçən müddət ərzində Naxçıvan Muxtar Respublikasında elm sahəsində sistemli və ardıcıl şəkildə aparılan işlər öz uğurlu nəticəsini vermiş, Naxçıvan tarixinin müxtəlif problemlərinin həllini özündə əks etdirən böyük elmi xəzinə yaradılmışdır. Məhz əldə olunan bu nailiyyətləri bir yerə toplamaq, sistemləşdirmək, qoruyub saxlamaq, yaymaq, təbliğ etmək, mükafatlandırılması ilə əlaqədar təkliflər vermək, onların arxivini və fondunu yaratmaq, muxtar respublikada və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, aparılan tədqiqatları koordinasiya etmək, alimlərin arasında sıx əməkdaşlığın yaradılmasına nail olmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılmışdır.

Beləliklə, yaradılan münbit şərait çoxlu sayda əsərlərin yazılmasına gətirib çıxarmışdır. Ancaq bu əsərlər Azərbaycan tarixinin tərkib hissəsi kimi Naxçıvan tarixinin ayrı-ayrı problemlərinə həsr olunmuşlar və bütövlükdə, bölgə tarixi haqqında ümumi təsəvvür yarada bilmirlər. İndiyədək bu boşluğu aradan qaldıra bilən, Naxçıvan tarixinin bütün dövrlərini və problemlərini özündə sistemli şəkildə əks etdirən akademik nəşr işıq üzü görməmişdi. Muxtar respublikanın hərtərəfli inkişafı belə bir əsərin nəşr olunmasını aktual bir məsələ kimi qarşıya qoymuşdu. Ermənilərin Naxçıvan bölgəsinə ərazi iddialarının gücləndiyi hazırkı dövrdə bölgə tarixi ilə bağlı erməni alimlərinin beynəlxalq elmi ictimaiyyəti Naxçıvan tarixi ilə əlaqədar saxtakarlıqla dolu kitab və məqalələri, yalan informasiyaları ilə aldatmaları Naxçıvan bölgəsinin gerçək, obyektiv tarixinin yazılmasının aktuallığını daha da artırırdı. Ona görə də Naxçıvan tarixi ilə əlaqədar aparılan bütün tədqiqatların sistemləşdirilməsi və tarixi həqiqətlərin obyektiv şəkildə beynəlxalq ictimaiyyətə çatdırılması üçün sanballı ümumiləşdirici əsərin yazılmasına böyük ehtiyac var idi.

Məhz bütün bunları, xüsusilə yaradılmış elmi bazanın “Naxçıvan tarixi” çoxcildliyi kimi möhtəşəm və fundamental nəşrin hazırlanmasına imkan verəcəyini, eyni zamanda muxtar respublikada hazırlanan kadr potensialının bu nəşrin hazırlanmasının öhdəsindən gələ biləcəyini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 6 avqust 2012-ci ildə “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” Sərəncam imzalamışdır. Sərəncamın imzalanmasından sonra, 15 yanvar 2013-cü ildə 2012-2015-ci illərdə nəşr olunması nəzərdə tutulan “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşri ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmiş, belə bir fundamental əsərin yazılmasında yalnız etibarlı mənbələr və öz elmi təsdiqini tapmış nəticələrə istinad edilməsi tövsiyə olunmuşdur. Elmin son nailiyyətləri, xüsusilə son 10 ildə aparılan tədqiqatların nəticələri əsasında yazılmış çoxcildliyin 2013-cü ildə I cildi, 2014-cü ildə II cildi, 2015-ci ildə isə III cildi hazırlanaraq “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə çap edilmişdir.

Naxçıvanın ən qədim zamanlardan başlayaraq müasir dövrədək tarixini əhatə edən çoxcildliyin I cildində Naxçıvan bölgəsinin təbii-coğrafi şəraitindən, ən qədim zamanlardan – Daş dövründən başlayaraq Erkən Dəmir dövrünə qədər keçdiyi inkişaf yolundan, e.ə. IX-II əsrlərdə bölgədə baş verən hadisələrdən söhbət açılır. Qeyd edilir ki, Naxçıvan heç bir vaxt Urartu dövlətinin tabeliyinə düşməmiş, eramızdan əvvəl IV – b.e. III əsrlərində mövcud olan Atropatena dövlətinin tərkibində olmuşdur. Cilddə həmçinin Naxçıvan əhalisinin etnogenezi məsələləri, əhalinin ərazidə yaşayan müxtəlif türk tayfalarının əsasında formalaşması əsaslandırılır, islamaqədərki dövrdə bir sıra türk tayfalarının bu ərazilərə gəlməsindən, bölgədə baş verən ictimai-siyasi proseslərdən, ərəb işğalından, bu zaman Naxçıvanın mühüm inzibati mərkəz kimi mövqeyindən bəhs olunur. I cilddə, həmçinin Naxçıvanın Azərbaycanın feodal dövlətlərinin tərkibində olması, bölgədə yaranan Naxçıvanşahlıq adlı kiçik dövlət qurumu, Azərbaycan dövlətçilik tarixində çox mühüm yeri olan Azərbaycan Atabəyləri dövləti, onun mərkəzini təşkil edən Naxçıvanın vəziyyəti işıqlandırılmış, təxminən, 30 il bu dövlətin paytaxtı olan Naxçıvan şəhəri və bəhs olunan dövrdə onun inkişafından söhbət açılmışdır. Monqolların Naxçıvan ərazisinə yürüşləri, ərazinin Hülakülər, Çobanilər, Cəlairilər, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olarkən vəziyyəti, Naxçıvan əhalisinin Toxtamışın və Əmir Teymurun qoşunlarına qarşı mübarizəsi də I cilddə araşdırılan məsələlərdəndir.

Kitabda Naxçıvanın Azərbaycan Səfəvilər dövlətinin tərkibində olan zamankı tarixindən bəhs olunmuş, qeyd edilmişdir ki, Səfəvilər dövlətinin tarix səhnəsinə çıxması ilə başlanan Səfəvi-Osmanlı müharibələri zamanı bölgə dəfələrlə döyüş meydanına çevrilmiş, böyük dağıntılara məruz qalmışdır. Bütün bu zərərlərə baxmayaraq, istər Səfəvilər dövründə, istərsə də onu əvəz edən Əfşarlar dövləti zamanında bölgə müəyyən inkişaf yolu keçmiş, kənd təsərrüfatı, sənətkarlıq, ticarət, şəhərlər inkişaf etmiş, mədəni nailiyyətlər qazanılmışdır.

Çoxcildliyin II cildində Naxçıvan xanlığının yaranmasından II Dünya müharibəsinədək olan dövrün tarixi öz əksini tapmışdır. Burada Azərbaycan dövlətçilik tarixində xüsusi yeri olan Naxçıvan xanlığının yaranması və keçdiyi yol, idarə sistemi, qonşu ölkələrlə münasibətləri, sosial-iqtisadi həyatı və sair yeni arxiv materialları əsasında ətraflı işlənmiş, I və II Rusiya-İran müharibələrinə, Naxçıvan xanlığının Rusiya tərəfindən işğalına ayrıca yer ayrılmışdır. Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsindən sonra buradakı sosial-siyasi vəziyyət, ermənilərin bu ərazilərdə yerləşdirilməsi, XIX yüzillik boyu davam edən köçürmənin nəticələri, həmçinin bölgənin təsərrüfat həyatı, aqrar münasibətlər, həyata keçirilən islahatlar, çarizmin müstəmləkə siyasətinə qarşı baş verən kəndli çıxışları, kapitalist münasibətlərinin inkişafı öz obyektiv təhlilini tapmışdır.

İkinci cilddə Naxçıvanın XX əsrin əvvəllərindəki sosial-siyasi vəziyyəti, I Dünya müharibəsi və onun Naxçıvana təsiri, ermənilərin Naxçıvanda törətdiyi soyqırımlar, Araz-Türk Respublikası, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri, iri dövlətlərin Naxçıvanla bağlı siyasətləri və sair məsələlər öz uğurlu əksini tapmışdır. Naxçıvanda sovet hakimiyyətinin qurulması, Moskva və Qars müqavilələri, Naxçıvan Muxtar Respublikasının yaradılması, muxtar respublikanın 1924-cü ildə qəbul olunmuş Əsasnaməsi, 1926 və 1937-ci il konstitusiyalarının qəbul olunması və onların mahiyyəti peşəkarlıqla təhlil edilmişdir. Naxçıvanda sənayenin vəziyyəti, kollektivləşdirmə sahəsində həyata keçirilən tədbirlər, sovet hakimiyyətinə qarşı baş verən üsyanlar da bu cilddə tədqiqat obyektinə çevrilmişdir.

Çoxcildliyin III cildində naxçıvanlıların İkinci Dünya müharibəsinin döyüş cəbhələrində, partizan hərəkatında iştirakı, arxa cəbhədə fəaliyyəti, müharibədən sonrakı bərpa illərində və XX yüzilliyin 50-60-cı illərində müharibənin törətdiyi çətinliklərin aradan qaldırılması, sənayenin, kənd təsərrüfatının və mədəniyyətin inkişaf etdirilməsi sahəsindəki fəaliyyətlərindən bəhs edilmişdir.

Məlumdur ki, ümummilli lider Heydər Əliyevin 1969-cu ilin iyulunda Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə aparılan məqsədyönlü işlər sayəsində ölkə iqtisadiyyatı durğunluqdan xilas olmuş və respublikanın hərtərəfli inkişafında dönüş mərhələsi başlanmışdır. Azərbaycan SSRİ-yə daxil olan 15 müttəfiq respublika içərisində inkişaf səviyyəsinə görə axırıncı yerlərdən ön cərgəyə çıxmışdır. Sənaye, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət yüksək dərəcədə inkişaf etdirilmişdir. Məhz buna görə də çoxcildlikdə 70-80-ci illərdə ölkənin keçdiyi yol ətraflı işıqlandırılmışdır.

Azərbaycan tarixşünaslığında bəzən “itirilmiş illər” kimi xarakterizə olunan 1991-1993-cü illərə həsr olunmuş “Naxçıvan müstəqilliyin ilk illərində (1991-1993-cü illər)” fəslində ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin Naxçıvan dövründən bəhs edilir. Fəsildə aparılan təhlillər belə bir nəticəyə gəlməyə əsas vermişdir ki, bu sözləri Naxçıvana aid etmək olmaz. Çünki ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşaması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışması “olum, ya ölüm” dilemması qarşısında qalan Naxçıvan Muxtar Respublikasının labüd fəlakətdən – erməni təcavüzündən qorunmuş, əhalini soyqırıma məruz qalmaqdan, aclıqdan, soyuqdan donmaqdan və sair bu kimi fəlakətlərdən xilas etmişdir.

Çoxcildliyin Naxçıvanın müstəqilliyinin möhkəmləndirilməsi dövründəki tarixinə (1993-2015-ci illər) həsr olunmuş fəslində bəhs olunan zaman çərçivəsində Naxçıvan Muxtar Respublikasında baş verən ictimai-siyasi proseslər dərindən təhlil edilmiş, qeyd olunmuşdur ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bütün ölkədə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da davamlı, yüksələn xətlə inkişaf başlanmış, muxtar respublika qısa müddətdə yüksək inkişaf yolu keçmiş, Azərbaycanın inkişaf etmiş sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir. Müasir dövrdə ulu öndərin işləyib hazırladığı inkişaf strategiyasının uğurla və yaradıcılıqla tətbiqi sayəsində muxtar respublika daha da inkişaf edir, yeni-yeni nailiyyətlər qazanılır. Qeyd olunan bütün bu məsələlər fəsildə öz əksini tapmışdır.

Məlum olduğu kimi, hər hansı bir xalqın tarixi işlənərkən orada siyasi və iqtisadi tarixlə yanaşı, mədəniyyət tarixindən də bəhs edilir. Bu cəhət “Naxçıvan tarixi” çoxcildliyində də nəzərə alınmış, kitabın əhatə etdiyi fəsillərin sonunda hər dövrün özünəməxsus mədəniyyətindən bəhs olunmuşdur. Naxçıvan bölgəsinin tarixinə dair ilk ümumiləşdirici əsər – akademik nəşr olan “Naxçıvan tarixi” çoxcildliyində əlavə olunan xronoloji cədvəllər, istifadə olunmuş mənbə və ədəbiyyatların, arxiv materiallarının siyahısı, əlavələr, o cümlədən Naxçıvan tarixinin müxtəlif dövrlərinə aid rəngli xəritələr, arxeoloji maddi-mədəniyyət nümunələrinin, memarlıq, epiqrafik və sair abidələrin, görkəmli şəxsiyyətlərin fotoşəkilləri Azərbaycan tarixinin tərkib hissəsi kimi Azərbaycançılıq ideologiyası əsasında yazılan əsərin dəyərini daha da artırmışdır.

***Bu il yanvarın 26-da Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində “Naxçıvan tarixi” çoxcildliyinin yüksək səviyyədə təqdimat mərasimi keçirilmişdir. “Naxçıvan tarixi” çoxcildliyinin nəşrinin yekunlaşmasını Naxçıvan tarixi ilə əlaqədar görülən işlərin hesabatı kimi dəyərləndirən Ali Məclisin Sədri çoxcildliyin ali təhsil müəssisələrində dərslik kimi tədris olunmasını, bu qədim diyarın tarixinin müxtəlif mərhələlərinə ətraflı nəzər salınmasını, elmi müzakirə və konfranslar keçirilməsini, “Naxçıvan tarixi”nin teleradio və qəzetlərdə geniş təbliğ olunmasını tövsiyə etmiş, tariximizin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması, tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısının alınması, Naxçıvan tarixi ilə əlaqədar tədqiqatların bundan sonra da davam etdirilməsi, yeni istiqamətlər müəyyənləşdirilməsi və kitablar yazılması haqqında tapşırıqlar vermişdir. Naxçıvanlı tarixçilər qarşıya qoyulan bu vəzifələrin uğurlu həllinə nail olmaq üçün bütün bacarıq və imkanlarından maksimum istifadə edəcəklər.***

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*

***Tarixin yaxın keçmişinə nəzər salsaq görərik ki, Dağlıq Qarabağ müharibəsi zamanı – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ən azı 613 azərbaycanlıya qarşı Ermənistan ordusu tərəfindən ən böyük soyqırımı törədilmişdir. Soyqırımı nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i yaşlı insan olmaqla, dinc sakinlər qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq valideynlərinin hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirmiş, 657 nəfər əlil olmuş, 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi barədə bu günə qədər heç bir məlumat yoxdur.***

## Azərbaycan Respublikasında törədilmiş Xocalı soyqırımının 24-cü ildönümü qeyd olunur



Bu münaqişə müasir tarixdə ən uzun sürən münaqişələrdən biridir. Dağlıq Qarabağ və ətraf rayonlar daxil olmaqla ermənilər tərəfindən işğal olunmuş Azərbaycanın suveren ərazilərində Ermənistan ordusu hərbi təlimlər və daimi təxribatlar aparır. Bundan başqa, Ermənistan hökumətinin Prezident İlham Əliyevin demokratik yolla seçilən hökumətinə qarşı apardığı təxribat nəticəsində 20 ildir ki, münaqişənin həlli uzadılır.

Ermənilərin hərbi təxribatları Azərbaycanla sərhəd ərazilərdə tez-tez baş verir ki, bu da Xocalı soyqırımının qanlı izlərindəndir. Dağlıq Qarabağ yaxınlığında öz ata-baba torpaqlarında yaşayan fermerlərə Azərbaycanla məqsədli şəkildə atəşkəsi pozan Ermənistan kəşfiyyat qüvvələri tərəfindən hücumlar edilir və onlar qətlə yetirilirlər. Azərbaycan Müdafiə Nazirliyi rəsmilərinin sözlərinə görə, təkcə 30 yanvar 2016-cı il tarixdə Ermənistan silahlı qüvvələri 128 dəfə atəşkəs rejimini pozmuş və təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin müdafiə mövqelərinə hücumlar etmişlər.

Bu ara-sıra, lakin ardıcıl atışmalar, demək olar ki, sərhəddə 100 kilometr uzunluğu olan bir çox mövqelərdə baş vermişdir. Bundan əlavə, 22 noyabr 2015-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin bölmələri Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutmuşlar. Azərbaycan ordusu erməni təxribatçılarını atəş cavabı ilə susdurmuşdur. Bundan başqa, Ermənistan on illərdir, Azərbaycanın dinamik inkişaf edən Naxçıvan Muxtar Respublikasına qarşı blokada tətbiq edərək burada iqtisadi çətinlik yaratmışdır. Yerevan tərəfindən izlənilən bu müharibə siyasətinə cavab olaraq beynəlxalq ictimaiyyət silahlı münaqişənin həlli istiqamətində passiv rol oynamış və Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistana qarşı heç bir sanksiyalar tətbiq olunmamışdır.

Xocalı soyqırımı ilə bağlı özünün "Qara Bağ" kitabı ilə məşhur olan britaniyalı jurnalist Tomas Patrik Londers de Vall "Ermənistan və Azərbaycan – Sülh və Müharibə" kitabında Ermənistan prezidenti Serj Sarkisyanın öz vətəndaşları tərəfindən günahsız insanlara və qonşuluqlarındakı sülhsevər Azərbaycan xalqına qarşı törətdikləri soyqırımdan peşman olaraq ictimai şəkildə üzr istəməyə həvəssiz olduğunu və bu faciəyə görə fəxr etdiyini diqqətə çatdırmışdır.

Daşnak erməni yazıçı Zori Balayan "Ruhların dirçəlişi" kitabında amansız erməni, "qəddar insan" obrazı yaradıb: "Vətəndaşlıq tələbi və müqəddəs insan borcu olaraq mən Xocalı soyqırımında iştirak etdim. Mən və Xaçatur evə daxil olanda bizim əsgər 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdı. Uşaq çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra mən 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və itlərə atdı. Axşam eyni qəddarlığı daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim".

Bu gün Ermənistanı idarə edən "siyasi elitadan" biz hansı ikitərəfli danışıqları gözləyirik? Bu, o dövlətdir ki, həmin cinayətkarların dəhşətli davranışlarını müdafiə edir və qoruyur. Onlar bəşəriyyətə qarşı ən dəhşətli cinayətlər törətmiş, vəhşicəsinə, qorxunc metodlardan istifadə edərək yüzlərlə azərbaycanlı mülki əhalini öldürmüşlər. Hətta İkinci Dünya müharibəsi zamanı Adolf Hitlerin "SS"-çiləri Almaniyanın yəhudi əhalisinə qarşı bu cür vəhşiliklərdən istifadə etməmişlər.

Daha bir erməni David Xeyriyan Beyrutda çap olunan "Xaç uğrunda" kitabında yazır: "Şəhərin soyuğunda biz meyitlərlə dolu bir kilometr məsafəni qət etməklə Daşbulağa getməli idik. Mən ölülərin üstündən getmək istəmədim. Bunu görən polkovnik-leytenant Ohanyan mənə işarə etdi ki, qorxmayın, bu, müharibənin qanunudur. Mən ayağımı 9-11 yaşlı qız meyitinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi".




APA-nın məlumatına əsasən, "Böyük Ermənistan" ideoloqlarından Zori Balayanın Xocalı soyqırımını törədənlərdən biri olduğunu sübut edən faktlar var. İnterpol tərəfindən axtarılan Zori Balayan 1996-cı ildə çap olunmuş "Ruhların dirçəlişi" kitabında azərbaycanlılara qarşı Xocalıda törədilən soyqırımı qəbul edir və fəxrlə tərifləyir: "Mən erməni vətənpərvəri kimi vəzifəmi etdim. Mən onun və digər əsgərlərin gözündə qisas uğrunda mübarizə və böyük humanizmi gördüm. Növbəti gün biz kilsəyə getdik və öncəki gün baş verənləri ruhumuzdan silmək üçün ibadət etdik". Kitabda deyilir ki, biz 3 min insanı Xocalı yamaclarında təmizlədik. Zori Balayan bildirir ki, ermənilər bu baş verən hadisəyə görə fəxr etməlidirlər. Yuxarıda qeyd olunan hadisələr "Ruhların dirçəlişi" kitabının 260-262-ci səhifələrində öz əksini tapmışdır.

1980-ci ilin sonlarında Ermənistan tərəfindən özünün cənub qonşusuna qarşı ərazi iddiası ilə başlayan və uzadılan qanlı müharibə Dağlıq Qarabağın və qonşu rayonların minlərlə azərbaycanlı mülki əhalisini məcburi qaçqın etmiş, onlar Azərbaycan Respublikasının 62 şəhərində 1600 qaçqın düşərgəsində yerləşdirilmişlər. Ermənistanda yaşayan azərbaycanlı sivil əhali də eyni tale ilə üzləşərək yaşadıqları ərazilərdən qovulmuş, çətin vəziyyətdə qaçqın düşərgələrində, çadırlar və vaqonlarda yaşamışlar. Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı öldürülmüş, 100 min nəfər yaralanmış və 50 min nəfər əlil olmuşdur. BMT-nin Ermənistanın Azərbaycan ərazilərini tərk etməsi barədə 4 qətnaməsi var. Lakin təəssüf ki, bu günə qədər bu qətnamələrə əməl olunmamışdır.

2016-cı il fevralın 26-da beynəlxalq ictimaiyyət Xocalı soyqırımının 24-cü ildönümünü xatırlayacaq. Təəssüf ki, Yerevan rəhbərliyi 1980-ci illərin sonlarındakı kimi öz təcavüzkar xarici və müdafiə siyasətini nümayiş etdirməyə davam edir. Ermənistan prezidentinin Azərbaycan Respublikasının Xocalı şəhərindəki sivil əhaliyə qarşı törədilən vəhşilikləri qəbul etmək və peşmanlıq keçirmək üçün niyyəti yoxdur.

XX əsr amerikalı filosof George Santayananın "Səbəbin həyatı" adlı kitabının birinci cildində deyilir: "Tarixdən dərs götürməyən onu təkrar yaşamağa düçar olacaqdır". Bu ifadə ermənilərin başqalarına qarşı münasibətini ən yaxşı təsvir edir.

**Peter TASE**
***01.02.2016***
***Amerika Birləşmiş Ştatlarının "Eurasia review" qəzeti***

## "Maddi-mədəniyyət nümunələrinin qorunmasında muzeylərin rolu" mövzusunda tədbir keçirilmişdir



***Dünən Naxçıvan Dövlət Tarix Muzeyində "Maddi-mədəniyyət nümunələrinin qorunmasında muzeylərin rolu" mövzusunda tədbir keçirilmişdir.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aparat rəhbəri Gülbuta Babayeva açaraq bildirmişdir ki, muzeylər maddi-mənəvi dəyərləri toplayan, qoruyan və təbliğ edən mədəniyyət ocaqlarıdır.

Qeyd edilmişdir ki, ölkəmizdə muzey işinin təşəkkül tapması və inkişafı müstəqil Azərbaycanın qurucusu və memarı, Azərbaycan mədəniyyətinin böyük hamisi Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, respublikamızın bütün bölgələrində yeni muzeylər yaradılmışdır.

Muxtar respublikamızda da muzeylər şəbəkəsinin genişləndirilməsinə, muzey işinin inkişafına böyük qayğı göstərilir. Hazırda regionumuzda 29 müxtəlif profilli muzey fəaliyyət göstərir ki, bu muzeylərdə də 112 minə yaxın maddi-mədəniyyət nümunəsi qorunub saxlanılır.

Bildirilmişdir ki, belə mədəniyyət müəssisələrinə göstərilən yüksək dövlət qayğısı həm də muzey işçilərinin məsuliyyət hissini artırır. Maddi-mədəniyyət nümunələrinin qorunması, onların bərpa edilməsi, geniş tamaşaçı kütləsinə tanıdılması muzey işçilərinin gündəlik vəzifəsidir.

Sonra mövzu ilə bağlı müzakirə aparılmışdır. Müzakirələrdə Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova, Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökumə Məmmədli, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin direktor əvəzi Yaqut Mehdiyeva, Hüseyn Cavidin ev-muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov çıxış edərək maddi-mədəniyyət nümunələrinin qorunub mühafizə olunması ilə bağlı fikirlərini bildirmişlər.

Vurğulanmışdır ki, muzey eksponatlarının sıradan çıxmasının səbəbləri vaxtında aradan qaldırılmalıdır. Bunun üçün dövlət muzeylərində saxlanılan muzey sərvətlərinin uçotu və mühafizəsinə dair təlimata əsaslanmaq lazımdır. Müxtəlif eksponatlar fərqli üsullarla mühafizə edilib qorunmalıdır.

**Əli RZAYEV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli sərəncamları ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq yanvar ayında insanların məşğulluğunun təmin olunması, sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial müdafiəsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir.***

## Muxtar respublikada əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

Ötən ay işaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 118 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 3 nəfər kvota yerlərinə göndərilmiş, 67 nəfər isə müvafiq peşə kurslarına cəlb edilmişdir. İşlə təmin olunan və peşə kurslarına göndərilənlərdən 22-si məhdud fiziki imkanlı şəxs, 2-si isə hərbi xidmətdən tərxis olunan vətəndaşlardır. Kəndlərdə yeni xidmət mərkəzlərinin istifadəyə verilməsi də məşğulluq problemlərinin həllində mühüm rol oynayır. Ötən ay 11 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 2 şəxs xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur. "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosialyönümlü layihə çərçivəsində ötən ay Naxçıvan şəhərində, Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarında 11 nəfərlə əmək müqaviləsi bağlanmış və onlara lazımi avadanlıq, alət və materiallar verilmişdir.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunur. Yanvar ayında "qazanxana maşinisti", "bərbər" peşələri üzrə kursları 56 nəfər bitirmişdir. Hazırda "qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər", "qazanxana maşinisti" və "elektrik montyoru" peşələri üzrə kurslar davam etdirilir. Bundan başqa, mərkəzdə sahibkarlıq subyektlərinin və dövlət idarələrinin kadr işləri üzrə mütəxəssislərinin iştirakı ilə "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" mövzusunda maarifləndirici kurs keçirilmişdir. Bu dövrdə qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələsinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı 49 obyektdə yoxlama aparılmış, 23 halda əmək müqavilələsinin bağlanmasına, 118 halda isə əməkhaqqının real göstərilməsinə nail olunmuşdur.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün distant dərslərin, onların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, həmçinin uşaqlara defektoloji, multisensorlu və əmək terapiyası xidmətinin göstərilməsi yanvar ayında da davam etdirilmişdir. Görmə məhdudiyyəti olan şəxslər üçün nəşr olunan "Könül işığı" adlı brayl jurnalının dekabr nömrəsi audiokitabxana xidmətinin kataloquna daxil edilmişdir.

Bu ilin ilk ayında muxtar respublikada müvafiq kateqoriyadan olan şəxslərə, habelə aztəminatlı ailələrə 1 milyon 41 min 758 manat sosial müavinət və ünvanlı dövlət sosial yardımı ödənilmişdir. Bu dövrdə tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 434 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, o cümlədən 13 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 27 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 28 uşağın müalicəsi təşkil edilmişdir. Həmçinin 11 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 5 nəfər texniki reabilitasiya vasitəsi ilə təmin olunmuş, 9 nəfərin sosial məişət şəraitinin yaxşılaşdırılmasına, 8 nəfərin respublika daxilində müalicəsinə maddi köməklik göstərilmişdir. Bundan başqa, Şərur rayonunun Ərəbyengicə kəndində yaşayan aztəminatlı ailəyə baş çəkilmiş, ailə üzvləri tibbi müayinədən keçirilmiş, onlara ərzaq payı verilmişdir.

Muxtar respublikada sahibkarlıq fəaliyyəti dəstəklənir, özəl sektorda fəaliyyət göstərən, yeni istehsal sahəsi yaratmaqla işaxtaranların daimi işlə təmin olunmasında iştirak edən hüquqi və fiziki şəxslərin fəaliyyəti lazımi qiymətini alır. Naxçıvan Biznes Mərkəzində 2015-ci ilin yekununa görə "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin qaliblərinə mükafatların verilməsi bunun aydın ifadəsidir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanın turizm potensialını necə təbliğ edirik?

*Ölkəmizin və onun tərkib hissəsi olan muxtar respublikamızın çox geniş turizm potensialı vardır. Diqqət etsək, bu məqamda yalnız turizm ehtiyatlarımızdan deyil, məhz turizm potensialımızdan danışırıq. Çünki turizm deyəndə yalnız turizm ehtiyatlarımızdan bir neçəsinin adlarının sadalanması heç turizm ixtisası üzrə təhsil alan birinci kurs tələbələrinə də yaraşmır. Odur ki, turizm potensialından danışırıqsa, o zaman hökmən elmi mülahizələrlə sübuta yetirilmiş, turistlərin real tələbatları baxımından öz təsdiqini tapmış və praktiki olaraq təcrübədən keçirilmiş arqumentlərə əsaslanmalıyıq.*



Naxçıvan Muxtar Respublikası təkcə ölkəmizin deyil, ümumiyyətlə, yaxın coğrafiyanın turizm baxımından ən cazibədar regionudur. Cəlbedicilik kimi bəziləri buradakı tarixi abidələri, bir başqaları təbii şəraiti və ya mineral suları, yaxud müalicəvi məkanları göstərə, bunları milli qonaqpərvərlik elementləri ilə də zənginləşdirə bilərlər. Şübhəsiz, bizim turizm ehtiyatlarımız kimi bunların hamısı vardır və onları görüb qiymətləndirmək üçün xüsusi istedad tələb olunmur. Ancaq Naxçıvanın əsl turizm potensialını onun müasir inkişafında axtarmaq, muxtar respublikamızın müasir inkişafının yaratdığı imkanlarla turizm ehtiyatlarımızın bəhrəsini görmək bu gün turizmin təşkili məsələlərində əsas yer tutmalıdır. Ona görə də turizm deyəndə təbiətin və xalqımızın minillik mədəniyyətinin yaratdığı turizm ehtiyatlarımızdan istifadə edə biləcək gücümüzdən, mədəniyyətimizdən, onları tanıtmaq işindəki səriştəmizdən danışmaq daha məqsədəuyğundur. Naxçıvanı 20 il əvvəlki vəziyyətindən tam fərqli libasla bəzəyən möhtəşəm quruculuq həm də onu bir turizm regionu halına gətiribsə, indi qarşımızdakı vəzifələr nədir? Məsələn, turizm problemlərinə aid elmi kitab və jurnallarda bəzi ölkələrdə turistlərin maraq göstərdikləri yerlərə getməsi üçün yol və nəqliyyat çətinliklərindən, xidmətlərdəki yarıtmazlıqlardan və hətta kriminogen təhlükələrdən bəhs olunur. Biz isə bu gün turizm potensialımız deyərkən, turizm ehtiyatı kimi misal üçün, sadəcə, Naxçıvanın təmiz havasını əsas götürərək muxtar respublikaya gəlmək istəyən turistlərə buradakı möhkəm asayişdən, sabitlikdən, dünyanın çox yerində rastlaşılmayacaq dürüstlükdən, digər xalqların mədəniyyətinə, onların milli kimliyinə olan tolerantlığımızdan danışırıq. Bəzən servis sektorumuzda göstərilən peşəkar xidmətlərin tam olmasını arzu edirik. Bəlkə bizim restoranlarda və yaxud otellərdəki bəzi işçilərimiz az gülərüz ola bilər, yaxud ilk dəfə gəlmiş əcnəbilər şəhərimizin köşklərində turist xəritəsi tapa bilməzlər. Ancaq inanırıq ki, belə kiçik çatışmazlıqlar bəzən ümumi peşəkarlığımız qarşısında dərindən hiss olunmaya bilər. Odur ki, turizm-xidmət sektorunda tələb olunan peşəkarlığın mükəmməl öyrənilməsi öz qazancını buradan gözləyən hər kəsin vəzifəsi olmalıdır.

Peşəkarlıq ən yaxşı qonaqpərvərlikdir. Şübhəsiz, qonaqpərvərlik turizmin ən vacib elementlərindən biridir. Başqa sözlə, ərazi nə qədər qeyri-adi ehtiyatlarla zəngin olsa da, qonaqpərvərlik gözləmədiyi yerə heç bir turist ayaq basmayacaq. Bu da məlumdur ki, indiki texnologiya dövründə əksər turistlər gedəcəkləri yer haqqında əvvəlcədən araşdırma aparır, internetdə yerləşdirilmiş elektron resurslarla tanış olduqdan sonra buradakı cazibədarlıqla canlı olaraq yerində tanış olmaq üçün səyahətə yollanırlar. Belə olduqda, gəlin görək, muxtar respublikamızın gəzib-görməli yerləri, tarixi abidələri, müasir turizm və sosial-mədəni infrastrukturu haqqında nə qədər elektron resurs yaradılıb, hansı filmlər çəkilib, nüfuzlu jurnallarda bu haqda neçə elmi məqalə dərc etdirilib? Turizm potensialımızın təbliği heç də tək bir qurumun vəzifəsi olmadığı kimi, ondan fayda görmək istəyən hər kəs ümumi işə öz töhfəsini verməlidir. Bir səyahətçi kimi turistlər bizdən daha tələbkardırlar. Ona görə də turistlərin vaxtının boş yerə keçməməsi üçün onlara turizm yollayışında əks olunmuş dəqiq xidmətlər zərfinin göstərilməsi tələb olunur. Bəziləri isə bu məsələdə çətinlik çəkirlər. Amma bir fakt: təkcə Naxçıvandakı muzeylərin imkanları, onların zənginliyi ilə buraya səyahət edəcək turistlərə saatlarla deyil, günlərlə mənalı vaxt təklif etmək imkanımız vardır. Naxçıvana gələn turistlərimizə XII əsr memarlığının şah əsəri olan Möminə xatın türbəsinin təqdimatı onların yaddaşından silinməyəcək bir hadisəyə çevrilməli, təqdimatlardan alınan təəssürat hədiyyəlik əşyalarla daha yaddaqalan olmalıdır. Odur ki, Naxçıvanı tanıdan, buraya səfər etmiş əcnəbiləri bir daha buraya cəlb edəcək hədiyyəlik əşyalar satışı, onların yaddaşında qalacaq xatirə bukletləri, reklam məzmunlu digər materiallar şəhərimizin müasir market və köşklərini, kitab mağazalarını, hava limanındakı, avtovağzallardakı qəzet köşklərini, sözün əsl mənasında, bəzəməli, turistləri seçim qarşısında qoymalıdır. Bunun üçün imkanlarımız isə kifayət qədərdir. Əgər bu gün dövlətimiz Naxçıvanın bir simvolu olan Əlincəqalanın bərpası üçün vəsait xərcləməyi lazım bilirsə, onda görəsən, Culfa rayonunda bu turizm incisinin təbliği və tanıdılması üçün indiyə qədər hansı işlər görülüb? Bəli, Batabatın və Ağbulağın tanıdılması üçün, ilk növbədə, şahbuzlular qolları çırmayıb işə girişməli, hamıdan çox ordubadlılar Gəmiqayanın ecazkarlığından bəhs etməli, hamımız birgə naxçıvanlı təəssübkeşliyimizi ortaya qoymalıyıq. Turizm xidmətlərində elektron resursların əhəmiyyəti haqqında çox danışırıq. Güman edirik ki, Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytı və burada xarici dillərdə təqdim olunacaq məlumatlar turistlər üçün çox faydalı olacaq. Ancaq burada təkcə bu qurumun üzərinəmi iş düşür? Görəsən, yerli icra hakimiyyətlərinin, demək olar ki, boş olan saytları heç olmasa həmin bölgələrin görməli yerlərindən ibarət fotoqalereya ilə zənginləşdirilsə, nə qədər xərc aparar? Hazırkı texnoloji imkanlarla 5-10 manat. Bəs heç internet saytı olmayan Naxçıvan bələdiyyəsi necə? O, bu sahədəki öz fəaliyyəti ilə digər bələdiyyələrə necə nümunə ola bilər? İndiyə qədər başı qarışıq olmuş bələdiyyələrimizin, xüsusən bu sahəyə can yanğısı görünməli, istər paytaxtımızda, istərsə də muxtar respublikamızın digər yaşayış məntəqələrindəki sosial-mədəni şərait bələdiyyələrin gördükləri işlərlə tamamlanmalıdır. Sözün qısası, gəlin turizmdə peşəkarlıq deyəndə təkcə otel personalının bacarıq səviyyəsindən bəhs edib onları qınamayaq. Turizm sektorundakı peşəkarlıq bu sahəni idarə etmək vəzifəsi tapşırılmış şəxslərdən tutmuş turistlərlə yarım saat ünsiyyətdə olan satıcı və ya taksi sürücüsünədək hər kəsin vətəndaşlıq borcudur.

Və vətənpərvərlik. Turizmdən, xüsusən beynəlxalq turizmdən gələn gəlirlərə hamı maraqlıdır. Çünki turizm xidmətlərinin elə bir mexanizmi vardır ki, buradan əldə olunan gəlir çox qısa müddətdə paylanıla bilir. Ancaq umduğumuz gəlirlərin real olması üçün, xüsusən təbliğat hər birimizin vəzifəsidir. Bu vəzifə muxtar respublikamızın inkişafı üçün yorulmadan çalışan bütün insanlar kimi, onun gözəlliklərini təbliğ edənlərin vətənpərvərlik borcudur. Çünki turizm peşəkarlıqla bərabər, həm də vətənpərvərlik tələb edən bir sahədir.

✍ **Əli CABBAROV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin yanvar ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisi dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1159 | 69,5 | 69,8 | 100,4 |
| 2. | Şahbuz rayonu | 510 | 30,6 | 30,7 | 100,3 |
| 3. | Culfa rayonu | 1262 | 75,7 | 75,9 | 100,3 |
| 4. | Kəngərli rayonu | 800 | 48,0 | 48,1 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3640 | 218,4 | 218,4 | 100,0 |
| 6. | Şərur rayonu | 1760 | 105,6 | 105,6 | 100,0 |
| 7. | Babək rayonu | 1835 | 110,1 | 110,1 | 100,0 |
| 8. | Sədərək rayonu | 375 | 22,5 | 22,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 18412 | 1104,8 | 995,4 | 90,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **29753** | **1785,2** | **1676,5** | **93,9** |

**Qeyd:** Yanvar ayında texniki itki nəzərə alınmaqla daxil olan 29 milyon 753 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 785 min 200 manat olmuş, cəmi 1 milyon 676 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 93,9 faizini təşkil edir.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

### *2016/2017-ci tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə müdavimlərin qəbulunu elan edir*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Abituriyentlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qolların üzərindən bədənin döşəmədən qaldırılması – 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qaçış 100 metr məsafəyə – 19 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə 30 saniyə).

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ***www.mia.gov.az*** internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında dərslər 15 sentyabrda başlayır, tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiyaya qəbul olunmuş müdavimlər 13 avqust-13 sentyabr tarixlərində akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin olunur, təhsil və kurs müddətində həmin akademiyanın ərazisində yerləşən yataqxanada qalırlar. Ətraflı məlumat ***www.pa.edu.az*** internet saytında yerləşdirilmişdir.

Məzunlara Hüquqşünaslıq ixtisası, polis leytenantı xüsusi və ehtiyatda olan leytenant hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2016-cı ilin aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul edilmirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul üçün namizədlər Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat və surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

***Ərizə və sənədlərin qəbulu 2016-cı il fevral ayının 5-dən mart ayının 10-dək hər gün (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək aparılacaqdır. Əlavə məlumat üçün əlaqə telefonları: 036-545-08-10 (155, 156, 160)***

### *İtmişdir*

Rzayev Elmahir Məşdi oğlunun adına Babək rayonunun Şıxmahmud kəndində olan torpaq sahəsinin A-000419 inventar nömrəli plan-ölçüsü və 103013001005 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 105